**2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar bələdiyyə üzvlüyünə namizəd Cabbarov Akif Sadıxbala oğlu və Qədirova Şəlalə Atababa qızının 7 yanvar 2010-cu il tarixli 568 saylı müraciətinə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının**

**Q Ə R A R I**

2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar 45 saylı Abşeron seçki dairəsi üzrə Görədil bələdiyyəsinin üzvlüyünə namizəd Cabbarov Akif Sadıxbala oğlu və Qədirova Şəlalə Atababa qızı 2010-cu il yanvarın 7-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək, adı çəkilən seçki dairəsinin 35 saylı seçki məntəqəsində səsvermə zamanı bəzi qanun pozuntularının baş verməsini, bununla bağlı dairə seçki komissiyasına müraciət etdiklərini, lakin dairə seçki komissiyasının heç bir tədbir görmədiyini bildirmiş və qanunla müəyyən edilmiş qaydada tədbirlər görülməsini xahiş etmişlər.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən araşdırılaraq bu barədə müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Mərkəzi Seçki Komissiyası vətəndaşların seçki hüquqlarının daha səmərəli təmini prinsipini əsas götürərək, müraciəti qanunla müəyyən olunmuş müddətdə, tam, hərtərəfli, obyektiv və qərəzsiz araşdırmışdır.

Araşdırma nəticəsində müəyyən edilmişdir ki, ərizəçilərin həmin seçki dairəsinin 35 saylı seçki məntəqəsində baş vermiş qanun pozuntuları ilə əlaqədar müraciəti "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq 45 saylı Abşeron seçki dairəsinin dairə seçki komissiyası tərəfindən 2009-cu il dekabrın 24-də qeydə alınmış, araşdırma üçün ekspert qrupunun üzvünə təqdim edilmiş, müraciətin tam, hərtərəfli, obyektiv və qərəzsiz araşdırılması məqsədilə ekspert qrupunun üzvü 2009-cu il dekabrın 26-da araşdırılma müddətinin uzadılması ilə bağlı vəsatət qaldırmış və müraciətin araşdırılma müddətinin uzadılması barədə dairə seçki komissiyası tərəfindən qərar qəbul edilmişdir.

Araşdırmanın və iclasın vaxtı barədə xəbərdar etməklə əlaqədar müvafiq tədbirlər görülmüşdür.

28 dekabr 2009-cu il tarixdə sözügedən müraciətə dairə seçki komissiyasının iclasında baxılmış, əsassız olduğundan təmin edilməməsi barədə qərar qəbul edilmiş və maraqlı şəxslərə çatdırılması üçün müvafiq tədbirlər görülmüşdür. Daha sonra A.S.Cabbarov və Ş.A.Qədirova qərara dair izah tələb etmiş və qərarın izahına dair məktub ona əlavə edilmiş qərarın surəti ilə birlikdə 6 yanvar 2010-cu il tarixdə onlara təqdim edilmişdir.

Odur ki, müraciət qanunsuz və əsassız hesab edilərək təmin edilməməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən **q ə r a r a a l ı r :**

1. Bələdiyyə üzvlüyünə namizəd Cabbarov Akif Sadıxbala oğlu və Qədirova Şəlalə Atababa qızının 7 yanvar 2010-cu il tarixli 568 saylı müraciəti əsassız olduğundan təmin edilməsin.
2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

| | |
|---|---|
| Sədr | Məzahir Pənahov |
| Katib | Natiq Məmmədov |
| Üzvlər | Fuad Cavadov |
| | Ramiz İbrahimov |
| | Validə Kazımova |
| | Qabil Orucov |
| | Tofiq Həsənov |
| | İlham Məmmədov |
| | Nizami Nadirov |
| | Azər Tağıyev |
| | Tamam Cəfərova |
| | Rövşən İsmayılov |
| | Oktay Hümbətli |